*İlhamə Məmmədzadə.* Azərbaycan cinayət mühakimə icraatında hüquqi şəxslərin iştirakının formalaşması mərhələlərinin təhlili // Azərbaycan Hüquq Jurnalı. 2024 (№3), s. 135-157.
DOI: 10.61638/WFWI5466

# CİNAYƏT-PROSESSUAL HÜQUQ

## AZƏRBAYCAN CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA HÜQUQİ ŞƏXSLƏRİN İŞTİRAKININ FORMALAŞMASI MƏRHƏLƏLƏRİNİN TƏHLİLİ

İLHAMƏ MƏMMƏDZADƏ*

**Annotasiya**

*Məqalədə Azərbaycan cinayət prosesində hüquqi şəxslərin iştirakının tarixi təkamülü beş əsas inkişaf mərhələsinə ayrılaraq tədqiq olunur. 1923-1960-cı illərdə ilk dəfə cinayət prosesində hüquqi şəxslərə istinad edilib, lakin onların rolu məhdud olaraq qalırdı və onlar cinayət məsuliyyətinin müstəqil subyektləri hesab edilmirdilər. 1961-1990-cı illər arasında onların prosessual statusları tədricən yaxşılaşdı, baxmayaraq ki, onlar hələ də tam məsuliyyət daşıyan tərəflər kimi tanınmamışdılar. 1991-ci ildə müstəqillik əldə etdikdən və bazar iqtisadiyyatına keçiddən (1991-2000) sonra hüquqi şəxslərin hüquqi inteqrasiyasında davam edən problemlərə baxmayaraq, onların əhəmiyyəti artdı. 2000-ci ildən 2016-cı ilə qədər yeni Cinayət Prosessual Məcəllələri hüquqi şəxslərin prosessual rollarını aydınlaşdırsa da, onların hüquqi müdafiəsi ilə bağlı həll olunmamış problemlər qalmaqda idi. 2016-cı ildə LVI-I Fəslin tətbiqi hüquqi şəxslərin cinayət məsuliyyətinin subyektləri kimi rəsmən tanınması və bununla da sistemin səmərəliliyinin artırılması ilə mühüm dönüş nöqtəsi oldu. Bununla belə, məqalədə vurğulanır ki, cinayət prosesi çərçivəsində onların hüquq və vəzifələrini tam təmin etmək üçün gələcək islahatlar vacibdir.*

**Açar sözlər:** *hüquqi şəxsin cinayət prosessual rolu, Azərbaycan cinayət prosesində hüquqi şəxs, cinayət prosesində hüquqi şəxs, zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh.*

### *I. Giriş*

Hüquqi şəxslərin cinayət mühakimə icraatında iştirakının tənzimlənməsi müasir dövlətlərin qanunvericilik sistemlərinin inkişafında, o cümlədən Azərbaycan Respublikasının hüquq sahəsində mühüm əhəmiyyət kəsb edir. Mövcud qanunvericilikdə hüquqi şəxslərin cinayət prosesində müxtəlif prosessual rollarda iştirakı nəzərdə tutulsa da, dəyişkən hüquqi mühit və ortaya çıxan praktiki problemlər onların prosesual hüquq və vəzifələrinin tam şəkildə təmin olunmasına mane olur.

Azərbaycanın hüquqi şəxs institutu, Azərbaycan SSR-nin yaranmasından sonra müvafiq məcəllələrdə ilkin əlamətlərini göstərmiş və sovet dövründə cinayət prosessual hüquq və mülki hüquqla paralel şəkildə inkişaf etmişdir. Bu dövrdə hüquqi şəxslərin cinayət mühakimə icraatında iştirakının əsasları müəyyən edilsə də, onlar müstəqil cinayət məsuliyyətinin subyekti kimi qəbul olunmamış, eyni zamanda cinayət mühakimə icraatında zərərçəkmiş şəxs, mülki iddiaçı, girov qoyan subyekt kimi rollarda hüquqi statusunun formalaşdırılması baxımından tam təşəkkül tapmamışdır. Həmin dövrdə hüquqi şəxslər daha çox kollektiv hüquqi subyektlər kimi qiymətləndirilir və onların cinayət prosesindəki rolu məhdud qəbul olunurdu.

* Dissertant / Bakı Dövlət Universiteti / email: ilhama.19@mail.ru

Bu məqalənin əsas məqsədi Azərbaycan cinayət mühakimə icraatında hüquqi şəxslərin iştirakının formalaşma mərhələlərini və onların prosesual rolunun inkişafını hərtərəfli şəkildə təhlil etməkdir. Bu məqsədlə, hüquqi şəxslərin cinayət prosesində iştirakı tarixi inkişaf kontekstində beş mərhələyə bölünərək araşdırılır. Belə ki, 1923-1960-cı illər arasında hüquqi şəxslərin cinayət mühakimə icraatında ilkin əlamətləri meydana çıxmış, 1961-1990-cı illər arasında onların prosessual rollarının təkmilləşdirilməsi istiqamətində işlər aparılmışdır. 1991-2000-ci illər ərzində Azərbaycan Respublikasının müstəqillik qazanması və müstəqil hüquq sisteminin formalaşması, hüquqi şəxslərin cinayət mühakimə icraatında iştirakının genişlənməsinə əhəmiyyətli zəmin yaratmışdır. 2000-2016-cı illərdə həyata keçirilən islahatlar nəticəsində hüquqi şəxslərin cinayət prosesində müxtəlif formalarda iştirakı daha da genişləndirilmişdir. Nəhayət, 2016-cı ildən etibarən Cinayət-Prosessual Məcəlləyə əlavə edilən LVI-I fəsil hüquqi şəxslər barəsində cinayət hüquqi xarakterli tədbirlərin tətbiqi, onların müdafiə hüquqları, təmsilçilik və digər prosesual hüquqlarının daha aydın əsaslarla müəyyən edilməsinə şərait yaratmışdır.

Lakin bu inkişafa baxmayaraq, hüquqi şəxslərin prosessual statusunun tam müəyyənləşdirilməsi və onların hüquqlarının tam təmin edilməsi hələ də tam həllini tapmamışdır. Bu məqalədə göstərilən dövrlər üzrə hüquqi şəxslərin cinayət mühakimə icraatındakı iştirakının elmi-nəzəri və praktiki yönləri diqqətlə araşdırılaraq, qüvvədə olan Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (AR CPM) mövcud olan problemlər təhlil edilir və onların aradan qaldırılması üçün həll yolları təklif olunur.

Nəzərə almaq lazımdır ki, Azərbaycan ərazisində hüquqi şəxslərin cinayət mühakimə icraatında iştirakının tarixi kökləri Rusiya işğalı dövrü və sonrakı mərhələlərə qədər uzansa da, həmin dövrlər üzrə mötəbər və əhatəli mənbələrin çatışmazlığı, prosessual normaların yetərincə sistemli şəkildə araşdırılmasını xeyli çətinləşdirir. Xüsusilə XIX əsr və Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrlərinə aid hüquqi şəxslərin cinayət prosesindəki rolunu əks etdirən kifayət qədər hərtərəfli qaynaq olmadığı üçün bu mərhələlər hələlik məqalənin tədqiq dairəsindən kənarda saxlanılır. Bununla belə, bu məsələlərin gələcək araşdırmalarda ayrıca və daha dərindən təhlil edilməsi mümkündür. Bu yanaşma, məqalədə diqqətin əsasən 1923-cü ildən sonrakı dövrlərin hüquqi tənzimləmə, prosessual standartlaşma və məhkəmə təcrübəsinin nəzərdən keçirilməsinə yönəldilməsinə xidmət edir.

## *II. Azərbaycan SSR dövründə hüquqi şəxslərin cinayət mühakimə icraatında iştirakının tənzimlənməsi (1923–1990)*

### *1. Birinci mərhələ (1923-1960)*

Hüquqi şəxslərin cinayət mühakimə icraatında iştirakı ilə bağlı əlamətdar hadisələrdən biri ASSR-nin ilk Cinayət-Prosessaul Məcəlləsinin (Cinayət Üsuli Mühakimə Məcəlləsi) 1923-cü ilin iyulun 16-da ASSR MİK-in III sessiyası tərəfindən qəbul olunması və onun sentyabrın 25-də qüvvəyə minməsi oldu [11,

s. 64]. Azərbaycan SSR CPM-in qəbul edilməsi respublikada cinayət-prosessual qanunvericiliyin inkişafında yeni bir vacib mərhələ oldu. Həmin məcəllənin qüvvəyə minməsi ilə birlikdə, məhkəmə və istintaq orqanlarının fəaliyyətini nizamlamaq üçün ilk dəfə əsaslı hüquqi baza yaradılmışdır. Bir sıra dəyişikliklər və əlavələrlə 1961-ci ilin martın 1-nə kimi qüvvədə olmuş, bu məcəllə işlənib hazırlanarkən Azərbaycanda və RSFSR-də məhkəmə haqqında verilən dekretlərlə müəyyən edilmiş prosessual formaların üç ildən artıq təcrübəsi ümumiləşdirilmiş və nəzərə alınmışdır.

Qeyd edək ki, 1923-cü ildən başlayaraq, Azərbaycan SSR qanunvericiliyində hüquqi şəxslərin mövcudluğu ilkin olaraq mülki hüquq sahəsində tanınmağa başlandı. Lakin o dövrdə qüvvədə olan Cinayət-Prosessual Məcəllələrdə hüquqi şəxs anlayışına yer verilmirdi. Bu, hüquqi şəxslərin cinayət prosesində iştirak imkanlarını məhdudlaşdırsa da, praktiki olaraq onlar müəyyən rollarda çıxış edirdilər.

Belə ki, həmin dövrdə Cinayət-Prosessual Məcəllələrdə proses iştirakçıları arasında təşkilat, müəssisə və birləşmələrin sadalanması göstərir ki, fiziki şəxslərlə yanaşı, hüquqi şəxslər də cinayət-prosessual hüquq münasibətlərində iştirak edirdilər. Lakin burada sual yaranır: "Bu subyektləri hüquqi şəxs kimi qəbul etmək olarmı?" Bunun cavabını həmin dövrün mülki hüquq doktrinası və mülki qanunvericiliyində axtarmaq lazımdır.

Mülki hüquq alimlərinin baxışlarını və mülki qanunvericiliyin normalarını təhlil edərək hesab edirik ki, cinayət prosesi hüquqi şəxs anlayışını o dövrdə tanımırdı, çünki faktiki olaraq hüquqi şəxslərin arxasında dövlət dayanırdı; buna görə də hüquq münasibətlərində ilkin olaraq dövlətin mənafeləri qorunurdu [9]. Əmlakın və istehsal vasitələrinin yeganə sahibi olan dövlət, ayrı-ayrı təşkilatların hüquqi və qanuni mənafelərinin cinayət-prosessual müdafiəsini mənasızlaşdırırdı. Bu səbəbdən, belə qurumlar (təşkilatlar) hüquqi şəxs kimi tanınmırdılar; bu terminlərin normativ təsbiti yalnız kollektiv qurumları göstərmək üçün idi və onların xüsusiyyətləri cinayət mühakimə icraatında müstəqil subyekt statusunu təmin etməyə imkan vermirdi.

1923-cü il Azərbaycan SSR Mülki Məcəlləsində hüquqi şəxs anlayışı normativ olaraq müəyyən edilsə də, onun mahiyyəti tam aydın deyildi. Məcəllənin 13-cü maddəsinə əsasən, hüquqi şəxslər əmlak hüquqları əldə edə bilən, öhdəliklərə girə bilən, məhkəmədə iddiaçı və cavabdeh ola bilən şəxslərin birləşmələri, idarələr və təşkilatlar hesab edilirdi. Lakin bu tərif hüquqi şəxsin zəruri ümumi əlamətlərini tam əhatə etmirdi. Məcəllənin 14-cü maddəsinə görə, hüquqi şəxs təsdiq edilmiş və lazım gəldikdə səlahiyyətli orqan tərəfindən qeydiyyata alınmış nizamnaməyə (əsasnaməyə) malik olmalı idi. Hüquqi şəxsin hüquq qabiliyyəti nizamnamə təsdiq edildiyi andan, qeydiyyat tələb olunan hallarda isə qeydiyyata alındığı andan meydana gəlirdi. Məcəllənin 15-ci maddəsində hüquqi şəxs hüquqlarına malik olan xüsusi idarələrin (xəstəxanalar, muzeylər, elmi idarələr və s.) yalnız müvafiq hakimiyyət orqanlarının icazəsi ilə

təsis edilə biləcəyi göstərilirdi. Maraqlıdır ki, hələ ilk Mülki Məcəlləmizin 18-ci maddəsi bir əsr bundan öncə hüquqi şəxsin nizamnamədə və ya müqavilədə nəzərdə tutulan məqsəddən kənara çıxdıqda və ya onun orqanları (ümumi yığıncaq, idarə heyəti) öz fəaliyyətində dövlət mənafeyinə zidd olan tərəfə meyl etdikdə, onun müvafiq dövlət hakimiyyəti orqanı tərəfindən ləğv edilə biləcəyini tənzimləyirdi [8]. Qeyd olunan hallar, fikrimizcə, hüquqi şəxslərin yaranma anının müəyyən edilməsinin ilk cəhdləri kimi simvolizə edilə bilər.

1923-cü il Azərbaycan SSR CPM-i (Cinayət Üsuli-Mühakimə Məcəlləsi) müəssisə və təşkilatlara mülki iddiaçı kimi çıxış etməyə imkan verirdi. Bu, hüquqi şəxslərin cinayət prosesində müəyyən dərəcədə iştirakını təmin edirdi. Daha sonra, 1940-cı illərdə əlavə edilmiş dəyişikliklərlə CPM təkcə mülki iddiaçı kimi deyil, həm də cinayət işinin qaldırılması üçün ərizə verən subyekt (maddə 88), əmlak zamini (maddə 149) və girov qoyan (maddə 150) kimi hüquqi şəxslərin prosesdə iştirakını genişləndirdi [4].

Beləliklə, birinci mərhələ (1923–1960) cinayət-prosessual qanunvericilikdə ilk dəfə fiziki şəxslərdən fərqli subyektləri (idarə, müəssisə) göstərən terminlər təsbit edilməsi ilə xarakterizə olunur. Bununla belə, həmin dövrün kollektiv qurumları müstəqil cinayət-prosessual statusa malik deyildilər. Bu, ilk növbədə, iqtisadiyyatın inkişaf etməməsi ilə bağlı idi, burada monopolist dövlət olduğu üçün həm əmlak, həm də digər münasibətlərdə subyekt tərkibinin genişləndirilməsi aparılmırdı. Bundan əlavə, elə mülki hüququn özündə də bu subyektlərin hüquqi statusu haqqında aydınlıq yox idi. Beləliklə, 1920-ci illər ASSR CPM-də olan normalar yalnız deklarativ xarakter daşıyır, əslində isə kollektiv qurumlar hüquqi şəxs kimi qəbul edilmirdilər. Lakin məhz bu dövrdə hüquqi şəxsin cinayət mühakimə icraatının subyekti kimi formalaşmasının təməli qoyuldu.

*2. İkinci mərhələ (1961-1990)*

1961–1990-cı illəri əhatə edən ikinci mərhələ SSRİ və ittifaq respublikalarının Cinayət Mühakimə İcraatının Əsaslarının, habelə ASSR-nin yeni CPM-nin qəbul edilməsi ilə əlamətdardır. 1923-cü il CPM-i qəbul edildikdən sonra respublikanın iqtisadi, siyasi və mədəni həyatında baş verən mühüm dəyişikliklərlə əlaqədar olaraq həmin məcəlləyə müəyyən dəyişikliklər və əlavələr edilsə də, bu məcəllənin əsas müddəaları 1961-ci il martın 1-ə qədər, yəni Azərbaycan SSR-də yeni CPM-in qəbul edilməsinədək qüvvədə olmuşdur.

11 fevral 1957-ci il tarixli "İttifaq respublikalarının məhkəmələrinin quruluşu haqqında qanunvericiliyin, mülki, cinayət və prosessual məcəllələrin ittifaq respublikalarının səlahiyyətinə verilməsi haqqında" SSRİ Qanunu, 1958-ci ildə SSRİ və İttifaq respublikalarının Cinayət Mühakimə İcraatının Əsaslarının və ittifaq respublikalarının CPM qəbuluna əsas oldu. Bu da cinayət prosesində zərərçəkmişin vəziyyətini əhəmiyyətli dərəcədə dəyişdirdi və onun hüquqlarını genişləndirdi. Bununla yanaşı, SSRİ və İttifaq respublikalarının əsas cinayət-

prosessual qanunvericilik aktının zərərçəkmişə həsr olunmuş normalarında qeyri-dəqiqliklər var idi. Bundan əlavə, Cinayət Mühakimə İcraatının Əsasları ilə Mülki Mühakimə İcraatının Əsasları arasında müəyyən uyğunsuzluqlar mövcud idi ki, bu da cinayət prosesində zərərçəkmişin hüquqi vəziyyəti, o cümlədən sovet cinayət mühakimə icraatında hüquqi şəxslərin prosessual vəziyyəti ilə bağlı elmi tədqiqatların aparılması üçün güclü təkan oldu [21].

A.S. Nikiforovun haqlı olaraq qeyd etdiyi kimi, hüquqi şəxs kateqoriyası mülki dövriyyənin və onu tənzimləyən mülki hüquq normalarının məhsuludur. Hüquqi şəxsin anlayışı və mahiyyəti məsələsi ən çox mülki hüquqda işlənmişdir [16, s. 25]. Eyni zamanda, mülkiyyət hüququnun möhkəmləndirilməsi, müqavilə münasibətlərinin inkişafı və mülki-hüquqi sahədə zərərin ödənilməsi institutunun təkmilləşdirilməsi fonunda həll olunmamış problemlər cinayət prosesində də öz əksini tapır və təbii ki, yeni tədqiqatçıların diqqətini cəlb edir. Buna görə də, hüquqi şəxsin cinayət-prosessual statusunun formalaşması tarixini öyrənərkən, mülki hüququn əsas müddəalarını qısaca təhlil etməyi və onları ilkin əsas kimi nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

Yeni iqtisadi siyasətə keçidlə dövlət müəssisələrinin təsərrüfat müstəqilliyi genişləndi və onlar dövlət və onun orqanları ilə əmlak baxımından müstəqil təsərrüfat vahidləri kimi fəaliyyət göstərməyə başladılar [2]. Həmçinin qeyd etmək lazımdır ki, Sovet İttifaqında iqtisadiyyatın idarə olunmasına siyasi yanaşmanın dəyişməsi nəticəsində hüquqi şəxslərin müstəqilliyi zaman-zaman genişlənib, zaman-zaman isə daralırdı. Bu dövrlərdə dövlət təşkilatları üstünlük təşkil edirdi ki, bu da hüquqi şəxslər institutunun tam mənasıyla inkişaf etməməsinə səbəb olmuşdur.

1964-cü il Azərbaycan SSR Mülki Məcəlləsində hüquqi şəxs anlayışı daha dəqiq və geniş şəkildə tərtib edildi. Məcəllənin 23-cü maddəsində hüquqi şəxs "ayrıca əmlakı olan, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edə bilən, vəzifələr daşıya bilən, məhkəmədə, arbitrajda və ya münsiflər məhkəməsində iddiaçı və cavabdeh ola bilən təşkilat" kimi müəyyən edildi [15]. Cinayət-prosessual qanunvericiliyi ilə əlaqələndirsək, 1964-cü il Mülki Məcəlləsində hüquqi şəxslərin hüquqi statusunun dəqiqləşdirilməsi, onların cinayət prosesində iştirak imkanlarını da genişləndirdi. Hüquqi şəxslər artıq daha aydın hüquqi baza əsasında mülki iddiaçı, mülki cavabdeh, zamin və digər proses iştirakçıları kimi çıxış edə bilirdilər.

Lakin cinayət-prosessual qanunvericiliyində hüquqi şəxslərin birbaşa cinayət məsuliyyəti daşıması nəzərdə tutulmurdu. Bu, əsasən, hüquqi şəxslərin mülki xarakterli məsuliyyəti ilə məhdudlaşırdı. Hüquqi şəxslərin cinayət prosesində iştirakı daha çox onların əmlak maraqlarının qorunması və zərərin ödənilməsi ilə bağlı idi. Bu vəziyyət, sonrakı dövrlərdə hüquqi şəxslərin cinayət məsuliyyətinin müasir hüquq sistemlərinə inteqrasiyası ilə dəyişməyə başladı.

Azərbaycan SSR-nin ilk Cinayət-Prosessual Məcəlləsində "zərərçəkmiş" anlayışı mövcud olsa da, onun tərifi verilmirdi; eyni zamanda, "mülki iddiaçı"

anlayışı da tərifsiz idi. Yalnız 1958-ci il SSRİ və İttifaq respublikalarının Cinayət Mühakimə İcraatının Əsaslarının 24-cü maddəsində ilk dəfə "zərərçəkmiş"in tərifi formalaşdırılmışdır. Bu maddəyə görə, cinayət nəticəsində mənəvi, fiziki və ya əmlak zərəri çəkmiş şəxs zərərçəkmiş hesab edilirdi. Beləliklə, bu andan etibarən sovet cinayət-prosessual qanunvericiliyində "zərərçəkmiş"in rəsmi tərifi meydana çıxdı [20, s. 5-6].

V.E. Yurçenko iddia edirdi ki, sovet cinayət prosesində zərərçəkmiş kimi yalnız fiziki şəxsləri qəbul etmək lazımdır, çünki İttifaq ölkələrinin cinayət prosessual qanunvericliyinin müvafiq maddələri yalnız vətəndaşlara—fiziki şəxslərə aiddir. O, əlavə edirdi ki, sovet hüququna görə, "şəxs" anlayışı həm vətəndaşlara, həm də hüquqi şəxslərə şamil olunsa da, bu, cinayət prosesində zərərçəkmişin yalnız vətəndaş deyil, həm də hüquqi şəxs ola biləcəyi qənaətinə gətirməməlidir, çünki qanun "şəxs", "şübhəli şəxs" və "təqsirləndirilən şəxs" anlayışlarını istifadə edərkən yalnız vətəndaşları nəzərdə tutur [26, s. 7-11].

Həmçinin V.M. Savitski və İ.İ. Poteruja da zərərçəkmiş haqqında danışarkən, cinayət nəticəsində istənilən yerdə hər hansı bir zərər çəkmiş vətəndaşı, fiziki şəxsi nəzərdə tuturdular. Müəlliflərin fikrincə, Əsasların 24-cü maddəsində göstərilən zərərçəkmişin hüquqları vətəndaşa, yəni fiziki şəxsə məxsusdur; əgər cinayət nəticəsində hüquqi şəxsin əmlakına zərər vurulmuşsa, o, prosesdə mülki iddiaçı kimi çıxış edir [20, s. 5-6].

Cinayət işləri üzrə vətəndaşların və hüquqi şəxslərin zərərçəkmiş kimi tanınması problemini araşdıran sovet alimlərinin əksəriyyəti eyni fikirdə idi və zərərçəkmiş kimi yalnız fiziki şəxsləri qəbul edirdilər. Onlar qeyd edirdilər ki, əgər cinayət nəticəsində hüquqi şəxsin əmlakına zərər vurulmuşsa, o, mülki iddia qaldırmaq hüququna malikdir ki, bu da onun hüquqlarının müdafiəsi üçün kifayətdir, çünki qanunla nəzərdə tutulan nə maddi, nə də mənəvi zərər hüquqi şəxsə vurula bilməz və cinayət-prosessual çərçivədə müdafiə üçün hüquqi şəxsin başqa qanuni maraqları yoxdur [26, s. 6].

Buna baxmayaraq, cinayət prosesi nəzəriyyəsində hüquqi şəxslər hesabına "zərərçəkmiş" anlayışının genişləndirilməsi barədə əks təkliflər də var idi. Məsələn, L.D. Kokorev hüquqi şəxslərə zərərçəkmiş statusunun verilməsinin zəruriliyini göstərirdi; o hesab edirdi ki, bu, cinayətdən zərər çəkmiş hüquqi şəxslərin maraqlarının daha yaxşı müdafiəsinə kömək edərdi [23, s. 256]. M.S. Stroqoviç qeyd edirdi ki, zərərçəkmişin hüquqlarından yalnız fiziki şəxs deyil, həm də hüquqi şəxs istifadə etməlidir. P.S. Daqel, M.S. Stroqoviçin fikrini dəstəkləyərək belə nəticəyə gəlir ki, hüquqi şəxslərə — əmək kollektivlərinə cinayət nəticəsində həm əmlak, həm də mənəvi zərər vurula bilər [24, s. 18]. M.S. Stroqoviç və L.D. Kokorevin arqumentlərinə görə, cinayət prosesində zərərçəkmişin hüquqlarından yalnız fiziki şəxslər deyil, həm də hüquqi şəxslər, əgər onlara cinayət nəticəsində əmlak və/və ya mənəvi zərər vurulubsa, istifadə etməlidirlər.

Nüfuzlu prosessualistlərin fikrincə, mülki qanunvericilik (SSRİ və İttifaq respublikalarının Mülki Qanunvericilik Əsaslarının 7-ci maddəsi) qayda

müəyyən edirdi ki, həm vətəndaşlar, həm də təşkilatlar öz şərəf və ləyaqətlərinin müdafiəsi hüququna malikdirlər; buna müvafiq olaraq, cinayət mühakimə icraatında da, əgər cinayət nəticəsində təşkilatların şərəf və ləyaqətini ləkələyən yalan məlumatların yayılması baş verərsə, hüquqi şəxslərə zərərçəkmiş statusu vermək lazımdır [23, s. 256].

Sovet cinayət prosesində zərərçəkmişin prosessual vəziyyətini tədqiq edən qırğız alim-prosessualist K.D. Smanov da zərərçəkmişin cinayət mühakimə icraatında iştirakı məsələlərini araşdırarkən "zərərçəkmiş" anlayışının cinayətdən zərər çəkmiş təşkilatlara, müəssisələrə və idarələrə də şamil edilməsinin vacibliyini vurğulamışdır. Onun fikrincə, hüquqi şəxslərə cinayət nəticəsində həm əmlak, həm də mənəvi zərər vurula bilər. K.D. Smanov yazırdı ki, şərəf və ləyaqətin müdafiəsi üçün təşkilat cinayət prosesində zərərçəkmiş kimi, öz nümayəndəsi vasitəsilə iştirak etmək hüququna malik olmalıdır. Təşkilata yalnız əmlak zərəri vurulduğu hallarda, hüquqi şəxs mülki iddiaçı kimi tanınmalı və zərərçəkmişin hüquqlarının bir qismindən istifadə edə bilməlidir [22, s. 28-34].

Zərərçəkmişdən fərqli olaraq, həmin dövrdə mülki iddiaçının prosessual statusu həm fiziki, həm də hüquqi şəxslərə şamil edilirdi. Zərərçəkmiş—ona vurulmuş əmlak zərərinin ödənilməsini tələb edən vətəndaş—həm də mülki iddiaçı kimi tanınmalı idi; əmlak zərəri vurulmuş hüquqi şəxs isə yalnız mülki iddiaçı ola bilərdi. 1960-cı il ASSR CPM-də idarə, təşkilat və müəssisələrə mülki iddiaçı və mülki cavabdeh statusu qəbul etməyə imkan verən xüsusi normalar meydana çıxdı. 23 mart 1979-cu il tarixli SSRİ Ali Məhkəməsi Plenumunun №1 saylı "Cinayət nəticəsində vurulmuş maddi zərərin ödənilməsi haqqında qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" qərarında qeyd edilir ki, SSRİ və İttifaq respublikalarının Cinayət Mühakimə İcraatının Əsaslarının 25-ci maddəsinə əsasən, cinayət işində mülki iddiaçı qismində cinayətdən maddi zərər çəkmiş və onun ödənilməsini tələb etmiş vətəndaş, habelə dövlət müəssisəsi, idarəsi, təşkilatı, kolxoz, kooperativ və digər ictimai təşkilat—hüquqi şəxs tanınır [21, s. 50]. Bundan əlavə, burada məhkəmələrin diqqətinə çatdırılır ki, maddi zərər vurulmuş cinayət işlərinin hər birində, məhkəmə hökm çıxararkən mülki iddianı həll etməli, əgər iddia verilməmişdirsə, zərərin ödənilməsi haqqında qərar qəbul edilməsi məsələsini öz təşəbbüsü ilə müzakirə etməlidir.

1958-ci il SSRİ-nin "Cinayət Prosessual Əsaslarının təsdiqlənməsi haqqında" qanunu hüquqi şəxslərə mülki cavabdeh kimi çıxış etmək imkanı verdi. Bu, 1961-ci ildə qəbul edilən Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsinin 53-cü maddəsində əks olundu və müəssisə və təşkilatlara mülki cavabdeh qismində prosesdə iştirak etməyə şərait yaratdı.

Bu hal Cinayət-Prosessual Məcəllənin təkmilləşdirilməsi üçün mümkün bir istiqamət, hüquqi şəxslərin hüquqi vəziyyətinin möhkəmləndirilməsi perspektivlərinin yaranması kimi qəbul edilməlidir. Bununla yanaşı, qeyd etmək

lazımdır ki, o dövrdə cinayət prosesində mülki iddianın hüdudları yalnız maddi zərərin ödənilməsi ilə məhdudlaşır, digər iddialar isə qəbul edilmirdi.

Mənəvi zərər (və ya hüquqi şəxslərin qeyri-əmlak nemәti kimi işgüzar nüfuz) kateqoriyaları qanunvericilikdə nisbətən yaxın zamanda cinayət-hüquqi mühafizənin ayrı bir obyekti və zərərçəkmişin prosessual statusunu təmin etmək üçün müstəqil əsas kimi meydana çıxmışdır. Uzun müddət sosialist cəmiyyətində mənəvi zərərin ödənilməsi ümumiyyətlə nəzərdə tutulmurdu. V.A. Dubrivnı sovet qanunvericiliyinin zərərçəkmişə əmlak zərəri vurulmadığı hallarda, mənəvi zərərin maddi formada ödənilməsini nəzərdə tutmamasını düzgün hesab edirdi [8]. Sovet qanunvericiliyi insanın şərəf, ləyaqəti və onun mənəvi iztirablarının pulla kompensasiya oluna bilməyəcəyini qəti şəkildə müdafiə edirdi. Eyni fikri A.P. Qulyaev, P.P. Tulenkov və V.M. Uskov da dəstəkləyirdi [10, s. 6-7].

Cinayət mühakimə icraatı sahəsində alimlər və mütəxəssislər zərərçəkmişin, mülki iddiaçının, mülki cavabdehin hüquqi vəziyyəti, onların cinayət prosesində iştirakı, həm ayrı-ayrı vətəndaşlara, həm də təşkilatlara, müəssisələrə və idarələrə zərərin ödənilməsi ilə bağlı qızğın müzakirələr aparırdılar.

Bir çoxlarının maraqlandığı əsas mübahisəli məsələyə dair SSRİ Ali Məhkəməsi Plenumu 1 noyabr 1985-ci il tarixli №16 saylı "Cinayət mühakimə icraatında zərərçəkmişin iştirakını tənzimləyən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" qərarında göstərmişdir ki, SSRİ və İttifaq respublikalarının Cinayət Mühakimə İcraatının Əsaslarının 24-cü maddəsinin məzmununa görə, zərərçəkmiş kimi cinayət nəticəsində birbaşa mənəvi, fiziki və ya əmlak zərəri vurulmuş vətəndaş tanınmalıdır [3, s. 246]. Zərərçəkmişin tanınması onun yaşından, fiziki və ya psixi vəziyyətindən asılı deyildir. Hüquqi şəxslər zərərçəkmiş kimi tanına bilməz. Onlara əmlak zərəri vurulduqda, onlar mülki iddiaçı kimi tanınırlar.

Beləliklə, sovet dövrünün cinayət-prosessual qanunvericiliyinin təhlili göstərir ki, burada "hüquqi şəxs" termini istifadə olunmurdu və hüquqi şəxslər (həmin illərin mülki hüquqşünaslarının şərhinə görə) cinayət mühakimə icraatında öz hüquq və qanuni mənafelərinin müdafiəsi üçün prosesin müstəqil, tamhüquqlu fəal iştirakçıları kimi çıxış edə bilmirdilər.

## *III. Azərbaycan Respublikasının cinayət-prosessual hüququnda hüquqi şəxslərin mövcud rolları*

### *1. Üçüncü mərhələ (1991–2000-ci illər)*

1991–2000-ci illəri əhatə edən üçüncü mərhələ SSRİ-nin dağılması və suveren dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının iqtisadiyyatın planlı formasından bazar formasına keçidi ilə müşayiət olunur ki, bu da müxtəlif hüquq münasibətlərində, o cümlədən cinayət-prosessual münasibətlərdə iştirakçıların tərkibinin dəyişməsinə səbəb oldu. Bu dövr eyni zamanda AR-da yeni CPM layihəsinin hazırlanması ilə müşayiət olunurdu.

SSRİ-nin dağılmasından sonra keçmiş ittifaq dövlətlərində, o cümlədən ölkəmizdə, iqtisadiyyatın idarə edilməsində siyasi yanaşma dəyişdi. Planlı iqtisadiyyata malik "güclü" dövlətin (SSRİ) 69 illik mövcudluğundan sonra yeni müstəqil dövlətlər bazar iqtisadiyyatı formasına keçdilər ki, bu da əmlak münasibətlərinin iştirakçılarının subyekt tərkibinin dəyişməsinə səbəb oldu [21]. Son üç onillikdə hüquqi şəxs kateqoriyası əhəmiyyətli bir ictimai fenomenə çevrildi; hüquqi şəxslərin rolu artdı və bu, onlara yalnız mülki hüquq sahələrində deyil, həm də ictimai hüquq sahəsində mövcud olmaq və fəaliyyət göstərmək imkanı verdi.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikası dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 4-cü maddəsinə əsasən, keçmiş SSRİ qanunları Azərbaycan Respublikasında respublikanın suverenliyinə və ərazi bütövlüyünə ziddiyyət təşkil etməyən, müvafiq qanun qəbul edilənədək hüquqi qüvvəsini saxlayırdı. Adı çəkilən maddənin tələblərinə görə, bu qanunların siyahısı Milli Məclis tərəfindən müəyyən edilməli idi [11, s. 80-81]. Bununla bağlı, yəni Konstitusiya aktının yuxarıda göstərilən müddəasına uyğun olaraq, Azərbaycan Respublikasının 1960-cı il Cinaayət Prosessual Məcəlləsi, onun andlı iclasçılarla bağlı müvafiq hissələrinin icrası təxirə salınmaqla 2000-ci il tarixli yeni CPM təsdiq edilənədək qüvvədə qalmışdır [19].

*2. Dördüncü mərhələ*

2000-2016-cı illəri əhatə edən dördüncü mərhələ hüquqi şəxslərin cinayət prosesində iştirakının hüquqi əsaslarının daha da gücləndirilməsi ilə xarakterizə olunur. Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra onun cinayət prosessual qanunvericiliyin inkişafında, 14 iyul 2000-ci ildə təsdiq edilmiş və 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş yeni Cinayət-Prosessual Məcəllə böyük bir tarixi hadisəyə çevrilmişdir [11, s. 80]. Yeni qəbul edilmiş CPM iki hissədən, 11 bölmədən, 58 fəsildən, 521 maddədən ibarət idi. Şübhəsiz ki, yeni CPM-in qəbul edilməsi respublikamızın həyatında müsbət rol oynayaraq, cinayət-prosessual qanunvericiliyin inkişafında mühüm əhəmiyyət kəsb etdi. Adı çəkilən məcəllə cinayət-prosessual hüquq sahəsində qanunçuluğun daha da möhkəmləndirilməsinə, vətəndaşların hüquqlarının və qanuni mənafelərinin ciddi surətdə qorunmasına, cinayət prosesini həyata keçirən dövlət orqanlarının fəaliyyətinin məqsədyönlü həyata keçirilməsinə təminat yaratdı.

XX əsrin sonları və cari əsrin əvvəllərində, Azərbaycanda cəmiyyətdə baş verən transformasiyalar nəticəsində hüquqi şəxslərin mülki hüquq institutları formalaşmışdır. Müvafiq olaraq, hüquqi şəxslər hüquqi münasibətlərə, o cümlədən cinayət prosesual münasibətlərə daxil olmağa başlamışdır. Bu isə öz növbəsində hüquqi şəxslərin cinayət prosesual münasibətlərdə iştirak etmə imkanını nəzərdə tutan müddəaların cinayət prosesual qanunvericiliyə daxil edilməsi zərurətini doğurmuşdur. 2000-ci il Azərbaycan Respublikasının

Cinayət Prosesual Məcəlləsi (AR CPM) hüquqi şəxslərin cinayət mühakimə icraatında aşağıdakı formalarda iştirak etmək hüququnu təsdiqləmişdir:

- Zərər çəkmiş şəxs kimi (AR CPM-in 87-ci maddəsinin 3-cü hissəsi);
- Mülki iddiaçı kimi (AR CPM-in 89-cu maddəsinin 1-ci hissəsi);
- Təşkilati zamin kimi (AR CPM-in 167-ci maddəsinin 1-ci hissəsi);
- Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumat verən tərəf kimi (AR CPM-in 205-ci maddəsi).

Qeyd etmək lazımdır ki, yeni məcəllə tərtib edilərkən keçən dövr ərzində ölkənin iqtisadi, siyasi və mədəni həyatında baş verən dəyişikliklər, habelə bu dövr ərzində respublikanın istintaq-prokurorluq və məhkəmə orqanlarının zəngin təcrübəsi nəzərə alınmışdır. Məcəllə əvvəlkindən fərqli olaraq prosesin bütün subyektlərinin prosessual vəziyyətini, onların hüquq və vəzifələrini, bu prosessual hüquq və vəzifələrin təminatlarını, habelə prosesin hər bir mərhələsinin həyaata keçirilməsinin prosessual qaydalarını nizama salmışdır. Əvvəlki CPM-ə münasibətdə görürük ki, yeni məcəllə cinayət mühakimə icraatının vəzifələrini daha dəqiq və aydın şəkildə müəyyən etməklə yanaşı cinayət-prosessaul qanunvericilik tarixində ilk dəfə olaraq cinayətlərin qarşının alınması, cinayətin törədilməsiə kömək edən səbəb və şəraitin aradan qaldırılmasını mühüm bir vəzifə kimi təsbit etmişdir [11, s. 80].

Bütün bunlara baxmayaraq respublikamızın CPM-in qəbulundan sonra keçən dövr ərzində ölkəmizin siyasi, iqtisadi və mədəni həyatın da baş verən dəyişikliklər və məcəllənin tətbiq olunması təcrübəsi cinayət-prosessual qanunvericiliyin bir sıra normalarının təkmilləşdirilməsi, onlara əlavələr və dəyişikliklər edilməsi zərurəti yarandı.

Hesab edirik ki, ASSR CPM-nin 1920-ci illərdə hüquqi şəxslərdən bəhs edən, xüsusilə onların cinayət mühakimə icraatında iştirakını tənzimləyən normaların (zərərçəkmişin, mülki iddiaçının, eləcə də mülki cavabdeh anlayışının müəyyən edilməsi və s.) olmaması, iki hüquq sahəsinin (mülki hüquq və cinayət-prosessual hüquq) müstəqilliyi və zərərin ödənilməsi institutunun inkişaf etməməsi ilə izah oluna bilər. Bu, bir daha hüquqi şəxs anlayışının mülki hüquq mənşəyindən xəbər verir. Cinayət-prosessual hüquq müzakirə olunan şəxsləri hüquq subyekti kimi tanımağa tələsmirdi. Bu məsələnin həlli üçün hüquqi şəxslərin müstəqil mövcudluğuna praktiki ehtiyac yaradan obyektiv iqtisadi şərtlər tələb olunurdu ki, bu da qanunvericiliyin sovet dövründə inkişafı zamanı mövcud deyildi.

Bu gün əminliklə hüquqi şəxsin təşkilinin və onun hüquqi status əldə etməsinin vahid qaydasından danışmaq olar. Hər bir təşkilat hüquqi şəxs deyil və müvafiq olaraq, zərərçəkmiş, mülki iddiaçı və cinayət prosesinin digər iştirakçısı kimi tanına bilməz; yalnız müvafiq qaydada qeydiyyat şəhadətnaməsi olan təşkilat bunu edə bilər. Beləliklə, hüquqi şəxslərin cinayət prosesində fəal, müstəqil iştirak etməsi üçün dövlətin sabit iqtisadi kursu, mülkiyyət

formalarının müxtəlifliyi zəruridir ki, bu da təşkilatların hüquqi statusunun təkmilləşdirilməsinə və onların müvafiq müdafiəsini nəzərdə tutur.

1991-ci ildə SSRİ-nin dağılması və MDB-nin yaranması ilə Azərbaycan Respublikasında hüquqi şəxsin cinayət mühakimə icraatında hüquqi vəziyyətinin formalaşmasının yeni tarixi başlanır. Bazar iqtisadiyyatı formasına malik yeni dövlətlərin yaranması, müvafiq normativ hüquqi aktların, o cümlədən cinayət-prosessual məcəllələrin qəbulunu nəzərdə tuturdu. Müstəqil Azərbaycan Respublikasının ərazisində 1961-ci ildən bəri qüvvədə olan ASSR Cinayət-Prosessual Məcəlləsi 2000-ci ildə Azərbaycan Respublikasının yeni və müasir CPM-nin qəbul edilməsi ilə qüvvədən düşdü [5]. Burada daha əvvəl mövcud olan və prosesin bütün iştirakçılarını təsvir edən təriflər dəyişməz qalırdı ki, bu da hüquq ictimaiyyətinin tamamilə məntiqli reaksiyasına səbəb olurdu; "şəxs" termininin təfsirində fiziki şəxslərlə yanaşı hüquqi şəxslər də nəzərdə tutulurdu.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində zərərçəkmişin hüquqi statusu, xüsusilə hüquqi şəxslərin zərərçəkmiş kimi tanınması və onlara mənəvi zərərin vurulması anlayışı uzun müddət mübahisəli mövzu olmuşdur. 1 sentyabr 2000-ci ilə qədər qüvvədə olan Cinayət-Prosessual Məcəllənin 49-cu maddəsinə əsasən, cinayətin mənəvi, fiziki və ya əmlak zərəri vurduğu şəxs zərərçəkmiş hesab olunurdu. Lakin hüquqi şəxslər zərərçəkmiş kimi tanına bilmirdilər; onlar yalnız əmlak zərəri dəydiyi halda mülki iddiaçı kimi çıxış edirdilər.

Lakin cinayət prosesi elmində hələ də zərərçəkmişin prosessual statusunun hüquqi şəxslərə şamil edilməsinin düzgünlüyü müzakirə olunur. Bu məsələ, hüquqi şəxslərin prosessual statusunun təkmilləşdirilməsi üçün böyük əhəmiyyət kəsb edir, çünki bu, onların əmlak və işgüzar nüfuzunun qorunmasının hüquqi əsasını təşkil edir. Zərərçəkmiş, sübutetmə, cinayət təqibi və ittihamın müdafiəsində geniş səlahiyyətlərə malik olan cinayət prosesinin mərkəzi fiqurudur. Zərərçəkmişin xüsusi statusu, əsasən, onun hüquqlarının ən ağır hüquq pozuntusu olan cinayət əməlləri tərəfindən pozulması ilə müəyyən edilir. O, dövlətin müdafiəsinə ehtiyac duyur və qanuna zidd olmayan bütün vasitələrlə öz pozulmuş hüquqlarını müdafiə etmək imkanına malikdir. Bu baxımdan, cinayətdən birbaşa zərər çəkmiş hüquqi şəxslərə zərərçəkmişin prosessual statusunun verilməməsi, ən azı laqeyd münasibətin və müasir reallıqlara uyğunsuzluğun təzahürü olardı.

Hazırda qüvvədə olan Cinayət-Prosessual Məcəllənin 87-ci maddəsi bu vəziyyəti dəyişdirərək zərərçəkmiş şəxs anlayışını genişləndirmişdir. Maddənin 3-cü hissəsinə əsasən, cinayət nəticəsində mənəvi və ya maddi ziyan dəymiş hüquqi şəxs zərərçəkmiş şəxs qismində tanına bilər. Bu yenilik hüquqi şəxslərin cinayət prosesində daha aktiv rol oynamasına və hüquqlarının daha effektiv müdafiəsinə imkan yaradır.

Lakin burada mühüm bir sual yaranır: hüquqi şəxsə mənəvi zərər necə vurula bilər? Hüquqi şəxslər fiziki hisslərə malik olmadıqları üçün onlara

mənəvi zərərin vurulması anlayışı məntiqi və hüquqi baxımdan problemlidir. Mənəvi zərər adətən fiziki şəxslərin şərəf və ləyaqətinin alçaldılması, mənəvi sarsıntı keçirməsi ilə bağlıdır.

Bu məsələyə digər ölkələrin qanunvericiliyində də diqqət yetirilmişdir. Məsələn, Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun 18 avqust 1992-ci il tarixli №10 saylı qərarında mənəvi zərər yalnız vətəndaşlara—fiziki şəxslərə münasibətdə izah edilir. Daha sonra, RF Dövlət Duması tərəfindən ikinci oxunuşda təsdiq edilmiş RF Cinayət-Prosessual Məcəlləsi layihəsinin son variantında hüquqi şəxslərin xüsusiyyətləri nəzərə alınmış və onların əsas dəyərləri kimi "əmlak və işgüzar nüfuz" göstərilmişdir. Hazırda Rusiya CPM-nin 42-ci maddəsində deyilir: "Cinayət törətməklə fiziki, əmlak və ya mənəvi zərər vurulmuş fiziki şəxs, habelə cinayət onun əmlakına və işgüzar nüfuzuna zərər vurduqda hüquqi şəxs zərərçəkmiş şəxsdir." Bu yanaşma hüquqi şəxslərin mənəvi zərər çəkmə qabiliyyətinin olmadığını qəbul edir və onların əsas dəyərləri kimi əmlak və işgüzar nüfuzu önə çəkir [17].

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 23.6-cı maddəsində şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsinə dair qaydaların hüquqi şəxslərə də şamil edildiyi göstərilir. Lakin bu maddə hüquqi şəxsin mənəvi zərərə görə kompensasiya almaq hüququna toxunmur. Rusiya Federasiyasının Mülki Məcəlləsində isə hüquqi şəxsin belə bir hüquqa malik olmadığı açıq şəkildə göstərilir.

Azərbaycanda hüquqi şəxslərin mənəvi zərərə görə kompensasiya almaq hüququnun olmaması barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi mövcuddur [18]. Bu mövqeyə əsasən, mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin müddəaları yalnız fiziki şəxslərə aiddir. Hüquqi şəxsin təsərrüfat fəaliyyəti və digər funksiyaları barədə yanlış məlumatların yayılması, haqsız rəqabət üsul və vasitələrindən istifadə olunması nəticəsində onun işgüzar nüfuzuna zərər vurulduqda, həmin hüquqi şəxs Mülki Məcəllənin 21-ci və 1097.1-ci maddələrinə uyğun olaraq ona vurulmuş maddi zərərin ödənilməsini tələb edə bilər.

Beləliklə, hüquqi şəxslərin mənəvi zərərə görə kompensasiya almaq hüququ olmasa da, onlara vurulmuş maddi zərərin ödənilməsini tələb etmək hüququ mövcuddur. Bu səbəbdən, Cinayət-Prosessual Məcəllənin 87-ci maddəsində hüquqi şəxslərə münasibətdə "mənəvi zərər" anlayışı əvəzinə "işgüzar nüfuza vurulan zərər" anlayışının tətbiq edilməsi daha məqsədəuyğundur. Bu dəyişiklik hüquqi şəxslərin hüquqi statusunu və onların hüquqlarının müdafiəsini daha dəqiq müəyyən edəcəkdir.

Hüquqi şəxslərin işgüzar nüfuzu onların ən mühüm qeyri-əmlak nemətlərindən biridir və qanunla qorunur. İşgüzar nüfuza vurulan zərər nəticəsində hüquqi şəxslər maddi zərər çəkirlər. Məsələn, yanlış məlumatların yayılması, haqsız rəqabət üsullarından istifadə olunması nəticəsində hüquqi şəxsin nüfuzu zədələnə bilər ki, bu da onun gəlirlərinin azalmasına, müqavilələrin pozulmasına səbəb ola bilər.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, hüquqi şəxslərin qeyd olunan hüquqları pozulduqda, onların bərpası üçün müxtəlif yollar nəzərdə tutulub və bunlardan biri də mülki iddiadır. Hüquq ədəbiyyatında cinayət işi ilə birlikdə mülki iddia haqqında geniş məlumat verilir və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün bu üsulun kifayət etdiyi barədə fikirlər mövcuddur. Lakin təəssüf ki, mövcud formada mülki iddia institutu müəyyən çatışmazlıqlara malikdir. Bu gün hüquqi şəxsin əmlakına zərər vurulduqda, o, mülki iddia qaldıra bilər. Bununla yanaşı, AR CPM-də işgüzar nüfuzun zərərinin hüquqi şəxsin zərərçəkmiş kimi tanınması üçün əsas olduğu və onun bərpa üsulu haqqında heç bir məlumat verilməyib. Nəticə etibarilə, mülki iddia institutu hüquqi şəxslərin fəaliyyətləri üçün son dərəcə vacib olan bu məsələni tənzimləmir.

Beləliklə bu dövrdə cinayət prosesində fiziki və hüquqi şəxslərin hüquqi statusu arasında fərqlər qalmaqda davam edirdi və hüquqi şəxslər öz hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində müəyyən çətinliklərlə üzləşirdilər. Hüquqşünaslar və alimlər, hüquqi şəxsin hüquqi vəziyyəti məsələlərini həll edərkən, əksər hallarda fiziki şəxslərə aid müddəalara əsaslanır və Cinayət-Prosessual Məcəllədə hüquqi şəxs anlayışının rəsmi tərifi olmadığı üçün digər sahələrdə işlənmiş təriflərə istinad edirdilər.

*3. Beşinci mərhələ*

2016-cı ildən bu günə qədər olan dövrü əhatə edən beşinci mərhələ isə Cinayət-Prosessual Məcəlləyə LVI-I fəsilin əlavə edilməsi ilə başlanır. Son onilliklərdə müasir cinayət tendensiyaları, xüsusilə hüquqi şəxslər tərəfindən mütəşəkkil cinayətkarlıq, korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi kimi ağır cinayətlərin törədilməsi, "hüquqi şəxslər cinayət törədə bilməzlər" (*societas delinquere non potest*) maksimasının yavaş-yavaş sıradan çıxması ilə nəticələnmiş [25, s. 927-945], korporativ strukturların mürəkkəbliyi və cinayət əməllərinin kollektiv şəkildə həyata keçirilməsi hüquqi şəxslərin də cinayət hüququnun subyekti kimi tanınmasını zəruri etmişdir.

Azərbaycan Respublikası da bu qlobal tendensiyaları nəzərə alaraq, 2012-ci ildə Cinayət Məcəlləsinə (bundan sonra CM) əlavə edilmiş "Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər" fəslinin [4] tamamlayıcı elementi kimi 2016-cı ildə CPM-ə "Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat" adlanan LVI-I fəsli, [6] həmçinin CPM-in bir sıra digər maddələrinə hüquqi şəxslərlə bağlı cinayət mühakimə icraatının aparılmasını tənzimləyən müddəalar daxil etmişdir. 2018-ci ilin 12 oktyabr tarixində qəbul olunan Qanunla Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə "Hüquqi şəxslər barəsində tətbiq edilən cinayət-hüquqi tədbirlərin icrasının xüsusiyyətləri" adlı XXIII fəsil əlavə edildikdən sonra [14], Azərbaycan Respublikasının CM və CPM-nin müvafiq fəslləri qüvvəyə minib. Beləliklə, hüquqi şəxslərin öz xeyrinə və ya mənafeyinə fiziki şəxslər tərəfindən törədilən cinayət əməllərinə görə məsuliyyətə cəlb olunması mümkün olmuş, həmçinin bu CPM-in

8.0.6-cı maddəsinə əsasən, cinayət mühakimə icraatının vəzifələrindən birinə çevrilmişdir. Bununla da, korporativ sferada törədilmiş hüquqpozmaların daha effektiv və ədalətli şəkildə həlli üçün hüquqi baza yaradılmışdır.

Beləliklə əgər bu vaxta qədər hüquqi şəxslər cinayət mühakimə icraatında yalnız, zərər çəkmiş şəxs, mülki iddiaçı, tşəkilati zamin və törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumat verən tərəf kimi iştirak edirdisə, artıq bu əlavə və dəyişikliklərlə hüquqi şəxslər cinayət məsuliyyətinin subyekti qismində cinayət prosesinə cəlb oluna bilərdi.

Qeyd edək ki, 2000-ci il CPM-də mülki iddiaçı qismində tanına biləcək şəxslər qismində hüquqi şəxs qeyd edilsə də, (…cinayət mühakimə icraatı qaydasında ödənilməsi barədə cinayət işinin icraatı zamanı iddia vermiş fiziki və ya hüquqi şəxs), mülki cavadehlə bağlı məsələlələri tənzimləyən AR CPM-in 93-cü maddəsində bu günə qədər, onun hüquqi şəxs olması ilə bağlı heç bir tənzimlənmə nəzərdə tutulmayıb. Müqayisə üçün qeyd edək ki, Rusiya Federasiyasının 2001-ci il tarixli CPM-nin 54-cü maddəsində mülki cavabdehin hüquqi şəxs ola biləcəyi açıq formada əks olunub. Rusiya Federasiyasının Mülki Məcəlləsinə uyğun olaraq cinayət nəticəsində dəymiş ziyana görə məsuliyyət daşıyan fiziki və ya hüquqi şəxs mülki cavabdeh qismində cəlb edilə bilər [7].

Cinayət mühakimə icraatında mülki cavabdehin iştirakı zərərçəkmiş şəxsin mənafeyinin qorunması və vurulmuş maddi ziyanın ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan qanunvericiliyində, AR Cinayət-Prosessual Məcəlləsinin (CPM) 93-cü maddəsində mülki cavabdehə dair tənzimləmələr mövcud olsa da, hüquqi şəxslərin mülki cavabdeh kimi tanınması açıq şəkildə əks olunmayıb. Lakin Mülki Məcəllənin müvafiq maddələrinə əsasən, hüquqi şəxslər müəyyən hallarda, məsələn, işçilərinin vəzifə funksiyalarını yerinə yetirərkən vurduğu ziyana görə, təqsirdən asılı olmayaraq maddi məsuliyyət daşıyırlar. Beləliklə, hüquqi şəxsin mülki cavabdeh kimi tanınması üçün onun təqsirli olması tələb edilmir; əsas olan onun qanunla müəyyən edilmiş qaydada ziyana görə məsuliyyət daşımasıdır.

2012-ci ildə Cinayət Məcəlləsinə edilən dəyişikliklərlə hüquqi şəxslər cinayət məsuliyyətinin subyekti kimi tanındığı üçün onların mülki cavabdeh qismində çıxış etməsi də qanunauyğun və məqsədəuyğundur. Bu, hüquqi müəyyənliyin təmin edilməsi və cinayət mühakimə icraatının effektivliyinin artırılması üçün vacibdir. Ona görə də təklif edirik ki, CPM-in 93-cü maddəsinə hüquqi şəxslərin də mülki cavabdeh ola biləcəyini açıq şəkildə göstərən müddəa əlavə edilsin. Bu dəyişiklik, hüquqi şəxslərin cinayət prosesindəki rolunu və zərərçəkmiş şəxslərin hüquqlarının daha səmərəli müdafiəsini təmin edəcəkdir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əlavə edilmiş LVI-I fəsil, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətlərini əhatə edir. Bu fəsil, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətlərini əhatə etməklə, onların cinayət prosesində iştirakının hüquqi

əsaslarını daha da möhkəmləndirdi. Bu mərhələdə hüquqi şəxsə qarşı icraatın başlanması, məhdudiyyətlər, hüquqi şəxsin nümayəndəsinin və müdafiəçisinin iştirakı, cinayət-hüquqi tədbirlərin təmin edilməsi və məhkəmə baxışının xüsusiyyətləri kimi mühüm məsələlər tənzimləndi.

İlk növbədə, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması ciddi məhdudiyyətlər daxilində mümkündür. Hüquqi şəxslərin iqtisadiyyatda oynadığı mühüm rolu nəzərə alaraq, onların əsassız cinayət təqibinə məruz qalmasının qarşısını almaq vacibdir, çünki bu, onların təsərrüfat fəaliyyətinə zərər verə və iqtisadiyyata mənfi təsir göstərə bilər. Buna görə də, icraatın başlanması səlahiyyəti yalnız ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora aiddir. Müstəntiq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulan fiziki şəxslərin hüquqi şəxsin xeyrinə və ya maraqlarının qorunması üçün cinayət törətdikləri barədə sübutlar əldə etdikdə, prokurora əsaslandırılmış vəsatət təqdim edir. Prokuror bu vəsatətlə razılaşdıqda, hüquqi şəxs barəsində icraat başlanır. Müstəntiqin müstəqil olaraq bu icraatı başlatma səlahiyyəti yoxdur ki, bu da qərarların obyektiv meyarlar əsasında qəbul edilməsini təmin etməyə və mümkün korrupsiya hallarının qarşısını almağa yönəlmişdir.

Hüquqi şəxsin prosessual müdafiə imkanlarının təmin edilməsi qanunla qorunur. İcraatın başlanması barədə qərarın surətini aldıqdan sonra hüquqi şəxs 24 saat ərzində nümayəndəsini təyin etməli və cinayət təqibi orqanına məlumat verməlidir [9]. Əgər bu müddət ərzində nümayəndə təyin edilməzsə, müstəntiq hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxslərdən birini nümayəndə kimi tanıyır. AR CPM-in 487-2.6 maddəsinə əsasən, hüquqi şəxs nümayəndəsi təyin edilmədiyi təqdirdə, müstəntiq tərəfindən hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxslərdən biri nümayəndə kimi təyin edilir. Bu yanaşma, nümayəndələrin təyin olunmasında aydın və konkret kriteriyaların olmaması səbəbindən potensial maraq toqquşmalarına və nümayəndənin obyektivliyinin zəifləməsinə səbəb olur. 487-3.2-ci maddə isə hüquqi şəxsin maraqlarını yalnız bir nümayəndə ilə təmsil etməyə imkan verir, lakin bu nümayəndənin keyfiyyəti və təmsilçiliyi barədə heç bir konkret meyar müəyyən edilmir. Əlavə olaraq, nümayəndələrin təyin edilməsində məhkəmə təsdiqi tələb olunmadığı üçün prosesdə şəffaflıq və ədalətlilik prinsipləri zəifləyə bilər.

Məhkəmə baxışı zamanı hüquqi şəxsin nümayəndəsi və müdafiəçisi iştirak etməlidir. Əgər nümayəndə üzrsüz səbəbdən məhkəmə iclasına gəlməzsə, məhkəmə baxışı təxirə salınır və məhkəmə iclası başqa vaxta keçirilir. Hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına təkrarən üzrsüz səbəbdən gəlməməsi məhkəmə baxışının onun iştirakı olmadan davam etdirilməsinə mane olmur, lakin bu halda müdafiəçinin iştirakı məcburidir. Bu tənzimləmə, hüquqi şəxsin maraqlarının müdafiəsinin təmin edilməsi məqsədi daşıyır. Ancaq qanunvericilik, hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına təkrarən üzrsüz səbəbdən gəlmədiyi və hüquqi şəxsin müdafiəçiyə malik olmadığı

hallarda məhkəmənin hansı mövqedən çıxış etməli olduğunu dəqiq müəyyən etmir. Bu baxımdan, məhkəmənin belə hallarda müdafiəçinin iştirakını öz qərarı əsasında (müvafiq hallarda dövlət hesabına) təyin etmək hüququnun qanunvericiliyə daxil edilməsi məqsədəuyğun olardı [1].

Təminedici tədbirlər kimi hüquqi şəxsin əmlakı üzərinə həbs və yenidən təşkilin və ya ləğvinin qadağan edilməsi nəzərdə tutulur. Bu tədbirlər əsasən məhkəmə qərarı ilə tətbiq edilir, xüsusi zərurət olduqda müstəntiq məhkəmə qərarı olmadan da əmlaka həbs qoya bilər. Əmlakın yalnız ayrıla bilən hissəsinin həbs edilməsi hüquqi şəxsin təsərrüfat fəaliyyətinə ən az müdaxilə etmək məqsədi daşıyır

Müstəntiq, toplanmış sübutları hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üçün kifayət hesab etdikdə, ittiham aktını tərtib edir və iş məhkəməyə göndərilir. Yetərli sübut olmadıqda, yaxud tədbirlərin tətbiqini zəruri edən hallar təsdiq olunmadıqda və ya onları istisna edən hallar aşkarlandıqda icraat xitam edilir. Bəzi hallarda fiziki şəxs barəsində iş xitam olunsa da, hüquqi şəxs barəsində yetərli sübut olduqda icraat davam etdirilə bilər [1].

Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi üzrə icraat bəzi hallarda xitam edilir. Belə ki, əgər fiziki şəxs barəsində cinayət işi Cinayət-Prosessual Məcəlləsinin 39.1.1–39.1.3, 39.1.6–39.1.8 və ya 39.2-ci maddələrinə əsasən xitam edilərsə, yaxud hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiqini tələb edən hallar təsdiqini tapmazsa və ya bu tədbirlərin tətbiq edilməsini istisna edən hallar müəyyən olunarsa, icraat dayandırılır. Bu halda, icraatın xitamına dair qərar qəbul edilir, cinayət prosesinin iştirakçılarına göndərilir və onların şikayətvermə hüququ izah olunur. Lakin bəzi hallarda fiziki şəxs barəsində iş xitam olunsa belə, əgər toplanmış sübutlar hüquqi şəxsə tədbirlərin tətbiqi üçün kifayətlidirsə, icraat davam etdirilə bilər.

Mövcud qanunvericilikdə problemli məqam ondan ibarətdir ki, AR CPM-in 487-6.3-cü maddəsinə əsasən, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi üzrə icraatın xitamına gətirib çıxaran hallara CPM-in 487-2.2-ci maddəsinə uyğun olan, yəni fiziki şəxs barəsində cinayət işinin CPM-in 39.1.1–39.1.3, 39.1.6–39.1.8 və ya 39.2-ci maddələrinə əsasən xitam edilməsi də daxildir. CPM-in 39.3-cü maddəsinə görə, 39.1.1, 39.1.2 və 39.2-ci maddələrə uyğun olaraq cinayət təqibi bəraətverici əsaslarla xitam edilmiş sayılır. Belə hallarda fiziki şəxslərin qanunsuz təqib nəticəsində dəyən ziyanın ödənilməsi barədə hüquqi imkanlar "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Qanunla təmin edilir. Lakin bu qanun yalnız fiziki şəxsləri əhatə etdiyindən, hüquqi şəxslər bəraət aldıqda belə, dəyən ziyanın ödənilməsi üçün qanuni təminat tapa bilmirlər. Mövcud vəziyyət CPM-in 487-6.3.1 və 56.0.2-ci maddələrində fiziki şəxslərin hüquqlarının qorunmasına şərait yaratsa da, hüquqi şəxslər üçün oxşar imkanlar nəzərdə tutulmur.

Bu problemi aradan qaldırmaq üçün qanunvericiliyə hüquqi şəxslərin də qanunsuz hərəkətlərdən irəli gələn ziyanın ödənilməsi hüququnun açıq şəkildə təsbit olunacağı dəyişikliklərin edilməsi vacibdir. Bu məqsədlə, CPM-in müvafiq maddələrinə (məsələn, maddə 56.0 və digər əlaqəli müddəalara) əlavə və düzəlişlərin edilməsi zəruridir. Bu dəyişikliklər hüquqi şəxslərin də bəraət aldıqda zərərin ödənilməsi hüququnu təmin edərək qanunvericiliyin ədalətliliyini və effektliyini artıracaqdır.

Həmçinin mövcud cinayət prosessual qanunvericilikdə əsas problemlərdən biri də 2016-cı il dəyişikliklərindən sonra digər əlaqəli normativ aktlarda zəruri düzəlişlərin edilməməsidir. Məsələn, Azərbaycan Respublikasının "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanununda cinayət-hüquqi tədbirlər tətbiq olunan hüquqi şəxslərin nümayəndələrinin dövlət müdafiəsi nəzərdə tutulmur. Bu, hüquqi şəxslərin nümayəndələrinin cinayət prosesi gedişində təzyiq və təhdidlərə məruz qalması riskini artırır. Hazırkı qanun yalnız vəkillər və qanuni nümayəndələri ehtiva etməklə, "nümayəndə" anlayışına birbaşa istinad etmir. Halbuki CPM-in 487-3.3-cü maddəsinə əsasən, hüquqi şəxsin nümayəndəsi təqsirləndirilən şəxslə eyni prosessual statusa malikdir. Buna baxmayaraq, dövlət müdafiəsi hüququ Cinayət-Prosessual Məcəlləsində deyil, başqa bir normativ aktla tənzimləndiyindən "Bu məcəllə ilə" ifadəsinə əsaslanan hazırkı çərçivə nümayəndənin qorunmasına hüquqi zəmin yarada bilmir.

Bu problemi həll etmək üçün "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə dəyişiklik edərək, cinayət-hüquqi tədbirlər tətbiq olunan hüquqi şəxslərin nümayəndələrinin də dövlət müdafiəsi altına alınması məqsədəuyğundur. Beləliklə, CPM-ə 7.0.31-1-ci maddə ilə əlavə edilən "barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi" anlayışı müvafiq qanuna daxil ediləcək və bununla da nümayəndələrin cinayət prosesində hüquqlarının müdafiəsi və təhlükəsizliyinin təmin olunmasına nail olunacaqdır.

Beləliklə, 2000-ci ildən 2016-cı ilə qədər olan dövrdə hüquqi şəxslərin cinayət prosesində hüquqi statusunun inkişafında əhəmiyyətli addımlar atılmış, lakin bəzi problemlər qalmaqda idi. 2016-cı ildə LVI-I fəsilin əlavə edilməsi ilə hüquqi şəxslərin cinayət prosesində məsuliyyətinin və onlara qarşı tətbiq olunan cinayət-hüquqi tədbirlərin təmin edilməsinin prosedur əsasları daha da dəqiqləşdirildi. Buna baxmayaraq, hüquqi şəxslərin hüquqlarının və müdafiə imkanlarının tam təmin edilməsi üçün əlavə islahatlara ehtiyac duyulur. Hüquqi şəxslərin cinayət prosesində tamhüquqlu, müstəqil subyektlər kimi iştirak etməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi və hüquq sahələrinin uyğunlaşdırılması vacibdir. Əvvəlki və müasir qanunvericiliyin, məhkəmə təcrübəsinin, digər ölkələrin qanunvericliyinin, hüquqi şəxsin hüquqi statusu ilə bağlı doktrinal

mənbələrin təhlili, hüquqi şəxsin cinayət prosesində iştirak problemlərinin gələcək müqayisəli-hüquqi tədqiqi üçün əsas yaradır.

*IV. Nəticə*

Aparılmış araşdırma Azərbaycan cinayət mühakimə icraatında hüquqi şəxslərin iştirakının müxtəlif tarixi mərhələlərdən keçdiyini, bu müddət ərzində onların prosessual statusunun tədricən aydınlaşdığını ortaya qoydu. İlk dövrlərdə (1923–1960) hüquqi şəxslər formaca prosesdə yer alsa da, onların müstəqil subyekt kimi qəbul olunmaması cinayət mühakimə icraatındakı rolunun real məhdudluğuna gətirib çıxarmışdır. 1961–1990-cı illər ərzində mülki hüquq doktrinasının inkişafı ilə hüquqi şəxslərin statusunun möhkəmləndirilməsinə zəmin yaransa da, onların cinayət prosesində zərərçəkmiş, mülki iddiaçı və mülki cavabdeh kimi tamhüquqlu fəaliyyət göstərməsi hələ də mümkün deyildi.

Müstəqillik dövründə, xüsusilə 2000-ci ildə qəbul edilmiş Cinayət-Prosessual Məcəllə və sonrakı dövrlərdə aparılan islahatlar (xüsusən 2016-cı ildə LVI-I fəslin əlavə edilməsi) hüquqi şəxslərin cinayət mühakimə icraatında nəinki passiv iştirakçı, hətta cinayət-hüquqi tədbirlərin subyekti kimi çıxış etməsinə şərait yaratdı. Bu addım beynəlxalq təcrübəyə və müasir cinayətkarlıq tendensiyalarına uyğunlaşmanı, korporativ subyektlərin məsuliyyət prinsipinin hüquqi mexanizmlərlə təmin edilməsini mümkün etdi.

Lakin bu nailiyyətlərə baxmayaraq, hüquqi şəxslərin cinayət mühakimə icraatında zərərçəkmiş, mülki iddiaçı və mülki cavabdeh kimi statuslarının daha aydın hüquqi çərçivəyə salınması, "mənəvi zərər" əvəzinə "işgüzar nüfuz" kateqoriyasının dəqiq definisiyası, bəraət aldığı halda hüquqi şəxsə dəyən ziyanın ödənilməsi mexanizminin yaradılması, nümayəndələrin səlahiyyət və müdafiə imkanlarının genişləndirilməsi kimi məsələlərdə əlavə islahatlara ehtiyac hiss olunur.

*Tövsiyələr:*

1. *Qanunvericiliyin dəqiqləşdirilməsi:*

- Cinayət-Prosessual Məcəlləyə hüquqi şəxslərin mülki cavabdeh kimi tanınmasını açıq şəkildə təsbit edən əlavə və dəyişikliklərin edilməsi.
- Hüquqi şəxsin "mənəvi zərər"dən çox "işgüzar nüfuza vurulan zərər" anlayışı çərçivəsində zərərçəkmiş qismində tanınmasına dair müddəaların işlənilməsi.
- Bəraət hallarında hüquqi şəxslərin dəyən ziyanın ödənilməsi hüququnun qanunda öz əksini tapması.

2. *Prosesual təminatlar:*

- Hüquqi şəxsin nümayəndəsi təyin olunarkən şəffaf meyarların müəyyənləşdirilməsi və həmin nümayəndələr üçün dövlət müdafiəsi mexanizminin qanunvericilikdə dəqiqləşdirilməsi.
- Nümayəndənin məhkəmə iclaslarında iştirak etmədiyi hallarda müdafiəçinin təyin olunmasına dair aydın prosessual qaydaların təsbit edilməsi.

3. *Normativ uyğunlaşdırma və əlaqələndirmə:*

- "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanuna hüquqi şəxsin nümayəndəsinin də dövlət müdafiəsi altına alınmasını təmin edən dəyişikliklərin edilməsi.
- Mülki, Cinayət və Cinayət-Prosessual məcəllələr arasında hüquqi şəxslərin məsuliyyəti və hüquqlarının müdafiəsinə dair normaların uzlaşdırılması.

Nəticə etibarilə, bu istiqamətdə aparılacaq islahatlar hüquqi şəxslərin cinayət mühakimə icraatındakı rolunu daha səmərəli, şəffaf və ədalətli edəcək, hüquq mühitinin inkişafına, iqtisadi sahədə fəaliyyət göstərən subyektlərin qanuni maraqlarının müdafiəsinə və ümumiyyətlə hüquqi ədalətin bərqərar olmasına mühüm töhfə verəcəkdir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Anti-Corruption General Directorate under under the Prosecutor General's Office. Criminal Liability of Legal Entities: Methodological Guide. Baku, 2020 (in Azerbaijani / *Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi. Hüquqi şəxslərin cinayət məsuliyyəti: Metodik vəsait. Bakı, 2020*).
2. Bratus S.N. Legal entities in Soviet civil law: Concept, types, state legal entities (Scholarly works; Issue XII / All-Union Institute of Legal Sciences of the Ministry of Justice of the USSR). Moscow: Legal Publishing House of the Ministry of Justice of the USSR, 1947 (in Russian / *Братусь С.Н. Юридические лица в советском гражданском праве: Понятие, виды, государственные юридические лица (Ученые труды; Выпуск XII / Всесоюзный институт юридических наук Министерства юстиции СССР). Москва: Юридическое издательство Министерства юстиции СССР, 1947*).
3. Collection of resolutions of the Plenums of the Supreme Courts of the USSR and the RSFSR on criminal cases. Moscow, 1999 (in Russian / *Сборник постановлений Пленумов Верховных Судов СССР и РСФСР по уголовным делам. Москва, 1999*).
4. Criminal Procedure Code of the Azerbaijan SSR: Including all amendments and additions up to September 1, 1944. *Ed* H.Majnunbeyov. Baku: Azernashr (in Azerbaijani / *Azərbaycan SSR cinayət üsuli-mühakimə məcəlləsi: 1944-cü il sentyabrın 1-nədək olan bütün əlavə və dəyişikliklər daxil edilmişdir (H. Məcnunbəyov, Red.). Bakı: Azərnəşr*).
5. Criminal Procedure Code of the Azerbaijan SSR, 1960 (in Azerbaijani / *Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsi, 1960*).

6. Criminal Procedure Code of the Republic of Azerbaijan, 2000 (in Azerbaijani / *Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, 2000*).
7. Criminal Procedure Code of the Russian Federation of 18.12.2001 No. 174-FZ, 2001 (in Russian / *Уголовно-процессуальный кодекс Российской Федерации от 18.12.2001 № 174-ФЗ, 2001*).
8. Dubrivny V.A. Victim during preliminary investigation. Saratov, 1966 (in Russian / *Дубривный В.А. Потерпевший на предварительном следствии. Саратов, 1966*).
9. Gribanov V.P. Legal entities. Moscow, 1961 (in Russian / *Грибанов В.П. Юридические лица. Москва, 1961*).
10. Gulyaev A.P., Tulenkov P.P., & Uskov V.M. Provision of compensation for material damage by the investigator. Moscow, 1963 (in Russian / *Гуляев А.П., Туленков П.П., & Усков В.М. Обеспечение следователем возмещения материального ущерба. Москва, 1963*).
11. Jafarguliyev M. Criminal Procedure of the Republic of Azerbaijan: Textbook for Law Faculties of Universities. Qanun, 2008 (in Azerbaijani / *Cəfərquliyev M. Azərbaycan Respublikasının Cinayət Prosesi: Ali məktəblərin hüquq fakültələri üçün Dərslik. Qanun, 2008*).
12. Kokorev L.D., & Pobegaylo G.D. Lawyer representative of the victim in the Soviet criminal process. Voronezh, 1965 (in Russian / *Кокорев Л.Д., & Побегайло Г.Д. Адвокат представитель потерпевшего в советском уголовном процессе. Воронеж, 1965*).
13. Law of the Republic of Azerbaijan on Amendments to the Criminal Code of the Republic of Azerbaijan, No. 314-IVQD, March 7, 2012 (in Azerbaijani / *Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, № 314-IVQD, 7 mart 2012*).
14. Law of the Republic of Azerbaijan on Amendments to the Criminal Procedure Code of the Republic of Azerbaijan, No. 436-VQD, November 29, 2016 (in Azerbaijani / *Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, № 436-VQD, 29 noyabr 2016*).
15. Laws of the Azerbaijan SSR. (2013). Civil Code of the Azerbaijan SSR (1923); Civil Code of the Azerbaijan SSR (1964). *Ed* B.J.Karimli. Baku: Huquq Yayin Evi (in Azerbaijani / *Azərbaycan SSR-in Qanunları. (2013). Azərbaycan SSR-in Mülki Məcəlləsi (1923-cü il); Azərbaycan SSR Mülki Məcəlləsi (1964-cü il) (B. C. Kərimli, tərt.). Bakı: Hüquq Yayın Evi*).

16. Nikiforov A.S. Legal entity as a subject of crime and criminal liability. Moscow, 2002 (in Russian / *Никифоров А.С. Юридическое лицо как субъект преступления и уголовной ответственности. Москва, 2002*).
17. On some issues that arose during the consideration by the courts of cases on the protection of the honor and dignity of citizens, as well as the business reputation of legal entities: Resolution of the Plenum of the Supreme Court of the Russian Federation of August 18, 1992, No. 11. Bulletin of the Supreme Court of the Russian Federation, (11), 7 (in Russian / *О некоторых вопросах, возникших при рассмотрении судами дел о защите чести и достоинства граждан, а также деловой репутации юридических лиц: Постановление Пленума Верховного Суда Российской Федерации от 18 августа 1992 г. № 11. Бюллетень Верховного Суда Российской Федерации, (11), 7*).
18. Resolution of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan on the practice of applying legislation on compensation for moral damage by courts, No. 7, November 3, 2008 (in Azerbaijani / *Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı, № 7, 3 noyabr 2008*).
19. Resolution of the Supreme Soviet of the Republic of Azerbaijan on Postponing the Entry into Force of Certain Articles of the Criminal Procedure Code of the Republic of Azerbaijan, No. 60-XII, February 9, 1991 (in Azerbaijani / *Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin bəzi maddələrinin qüvvəyə minməsini təxirə salmaq haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərar, № 60-XII, 9 fevral 1991*).
20. Savitsky V.M., & Poteruzha I.I. Victim in Soviet Criminal Procedure. Moscow, 1963 (in Russian / *Савицкий В.М., & Потеружа И.И. Потерпевший в советском уголовном процессе. Москва, 1963*).
21. Sharshembiev A.O. Participation of Legal Entities in Criminal Proceedings of the Kyrgyz Republic and Russian Federation, 2013 (in Russian / *Шаршембиев А.О. Участие юридических лиц в уголовном судопроизводстве Кыргызской Республики и Российской Федерации, 2013*).
22. Smanov K.D. Procedural status of suspect, victim, accused in Soviet criminal proceedings: Textbook. Frunze, 1971 (in Russian / *Сманов К.Д. Процессуальное положение подозреваемого, потерпевшего, обвиняемого в советском уголовном процессе: Учебное пособие. Фрунзе, 1971*).

23. Strogovich M.S. Course of Soviet criminal procedure (Vol. 1). Moscow, 1968 (in Russian / *Строгович М.С. Курс советского уголовного процесса (Т. 1). Москва, 1968*).
24. Victim of Crime: Collection of Scientific Papers. *Ed* Dagel P.S. Vladivostok, 1974 (in Russian / *Потерпевший от преступления: Сборник научных трудов. Дагель, П. С. (Ред.). Владивосток, 1974*).
25. Weigend T. Societas delinquere non potest? A German perspective. *Journal of International Criminal Justice*, 2008, *6*(5), 927–945
26. Yurchenko V.E. Guarantees of the rights of the victim in judicial proceedings. Tomsk, 1977 (in Russian / *Юрченко В.Е. Гарантии прав потерпевшего в судебном разбирательстве. Томск, 1977*).

**Analysis of the stages of formation of participation of legal entities in the criminal proceedings of Azerbaijan**

ILHAMA MAMMADZADA*

**Abstract**

*This article explores the historical evolution of legal entities' participation in Azerbaijan's criminal proceedings, distinguishing five key developmental stages. During 1923–1960, legal entities were first referenced, yet their role remained limited, and they were not considered independent subjects of criminal liability. Between 1961 and 1990, their procedural status incrementally improved, though they still lacked recognition as fully accountable parties. Following independence in 1991 and the shift to a market economy (1991–2000), the significance of legal entities grew, despite ongoing challenges in their legal integration. From 2000 to 2016, new Criminal Procedure Codes clarified the procedural roles of legal entities, but unresolved issues persisted concerning their legal protection. The introduction of Chapter LVI-I in 2016 marked a crucial turning point by officially recognizing legal entities as subjects of criminal liability, thereby enhancing the system's effectiveness. However, the article emphasizes that further reforms are essential to fully guarantee their rights and obligations within the criminal process.*

**Keywords:** *criminal procedural role of a legal entity, legal entity in the Azerbaijani criminal process, legal entity in the criminal process, injured party, civil plaintiff, civil defendant*.

**Анализ этапов формирования участия юридических лиц в уголовном процессе Азербайджана**

ИЛЬХАМА МАМЕДЗАДЕ**

**Резюме**

*Статья исследует исторические этапы становления участия юридических лиц в уголовном процессе Азербайджана, выделяя пять ключевых периодов. В 1923–1960 гг. юридические лица впервые упоминались в уголовном процессе, но их участие оставалось ограниченным и не предусматривало самостоятельной уголовной ответственности. В*

* PhD candidate / Baku State University / email: ilhama.19@mail.ru
** Диссертант / Бакинский Государственный Университет / email: ilhama.19@mail.ru

*1961–1990 гг. статус юридических лиц постепенно укреплялся, хотя они по-прежнему не признавались полноценными субъектами уголовной ответственности. После обретения независимости в 1991 г. и перехода к рыночной экономике (1991–2000 гг.) их роль существенно возросла, однако сохранялись определенные затруднения в правовом регулировании. В 2000–2016 гг. новые уголовно-процессуальные кодексы прояснили процессуальные функции юридических лиц, но проблемы в обеспечении их прав оставались актуальными. Введение в 2016 г. главы LVI-I открыло путь к признанию юридических лиц субъектами уголовной ответственности, усиливая эффективность правовой системы. Тем не менее, автор подчеркивает необходимость дальнейших реформ, направленных на полное обеспечение прав и обязанностей юридических лиц в уголовном процессе.*

**Ключевые слова:** *уголовно-процессуальная роль юридического лица, юридическое лицо в уголовном процессе Азербайджана, юридическое лицо в уголовном процессе, потерпевший, гражданский истец, гражданский ответчик.*

**Redaksiyaya daxil olma tarixi: 06.07.2024**
**Çapa qəbul: 24.12.2024**